# 17 NOYABR – MİLLİ DİRÇƏLİŞ GÜNÜDÜR!

*Heydər Əliyev – xalq birliyi əbədidir!*



*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
Heydər Əliyev

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 15-16 (1538) | 07-17 noyabr 2023-cü il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

## Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib



Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev paradda iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı şəxsi heyəti salamladı.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Hərbi orkestr Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdi.

Dövlətimizin başçısı paradda çıxış etdi.

Azərbaycan Prezidentinin çıxışından sonra Silahlı Qüvvələrin parad heyətlərinin hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi başlayıb.

Parada müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, "Zəfər" və "Qarabağ" ordenli general-polkovnik Kərim Vəliyev komandanlıq edib.

Silahlı Qüvvələrin parad heyətləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Şuşa şəhərinə sancılan – Qələbənin rəmzinə çevrilən Zəfər Bayrağı altında tribunaya doğru irəliləyiblər.

Ardınca Azərbaycan Ordusunun və qoşun növlərinin, lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş hərbi birləşmələrin döyüş bayraqları Xankəndi şəhərinin mərkəzi meydanına gətirilib.

Parad heyətlərinin keçidindən sonra antiterror tədbirləri zamanı müsadirə olunan hərbi texnikaların kiçik bir qismi qoşqular üzərində Xankəndi şəhərinin mərkəzi meydanına gətirilib. Müsadirə edilmiş hərbi texnikaların və nəqliyyat vasitələrinin nömrə nişanlarından hazırlanan və üzərində "Zəfər" sözü həkk edilən lövhə nümayiş olunub.

İkinci Qarabağ müharibəsində tarixi Zəfərin üçüncü ildönümü münasibətilə Xankəndi şəhərində təşkil edilən, Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu hərbi parad "Qələbə" marşının ifası ilə başa çatıb.



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda "DOST EVİ" filialının açılışında iştirak ediblər

Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi şəhid ailələrinin üzvləri, əlilliyi olan şəxslər, valideynini itirmiş uşaqlar, aztəminatlı ailələrin övladları sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

Mərkəzin fəaliyyət istiqamətləri əsasən musiqi, təsviri incəsənət, rəqs, dulusçuluq, xalçaçılıq, toxuma, floristika, landşaft dizaynı və bağçılıq, bədii oyma, kulinariya, fotoqrafiya və sairdir.

Fəaliyyət dövrü ərzində 470 benefisiar Mərkəzdə müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıb. Hazırda Mərkəzdə 186 nəfərə xidmət göstərilir. Onlardan 131 nəfər əlilliyi olan şəxs, 21 nəfər valideynini itirmiş uşaq, 22 nəfər aztəminatlı ailələrin üzvləri, 12 nəfər isə şəhid ailəsi üzvüdür.

İsmayıllıdakı "DOST EVİ" də həmin Mərkəzin filialı kimi fəaliyyət göstərəcək.

Bildirildi ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialı Muğanlı-İsmayıllı yolunun 16-cı kilometrliyində yerləşir.

Müəssisə modern və konstruktiv elementlərlə, milli ornamentlər də əlavə olunmaqla müasir üslubda layihələndirilib, mühəndis sistemləri ən yüksək tələblərə cavab verir.

"DOST EVİ" birmərtəbəli olmaqla iki blokdan ibarətdir. Filialda 10 istiqamət üzrə 6 emalatxana - dulusçuluq, bədii oyma, misgərlik və zərgərlik, dərzilik və kəlağayı, xalçaçılıq, toxuma və bədii tikmə, un məmulatları emalatxanaları fəaliyyət göstərəcək.

Sərgi və Satış Mərkəzində benefisiarların hazırladıqları əl işlərinin nümayişi, həmçinin satışı həyata keçiriləcək. Hazırda "DOST EVİ"ndə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları tərəfindən dulusçuluq, bədii oyma, xalçaçılıq, toxuma və tikmə, dərzilik, təsviri incəsənət, floristika, bağçılıq və landşaft dizaynı istiqamətləri üzrə hazırlanmış əl işlərindən ibarət sərgi təşkil olunub. Sərgidə 150-dək əl işi təqdim edilir.



## Prezident İlham Əliyev Özbəkistanın investisiya, sənaye və ticarət nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri Laziz Kudratovu qəbul edib.

Dövlətimizin başçısı ilk növbədə Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısının yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, həmin tədbir çərçivəsində Özbəkistan Prezidenti ilə görüşünü məmnunluqla xatırladı.

Dostluq və qardaşlıq münasibətlərimizin gündəliyinin çox geniş olduğunu və müxtəlif istiqamətləri əhatə etdiyini deyən Prezident İlham Əliyev iqtisadi, sənaye, o cümlədən sənaye kooperasiyası, kənd təsərrüfatı və digər sahələrdə nəzərdə tutulan birgə layihələrin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Laziz Kudratovun ölkəmizə səfəri zamanı qarşıdakı illərdə əməkdaşlığın gündəliyi və qarşıya qoyulan məqsədlərə nail olunması ilə bağlı səmərəli müzakirələrin aparılacağına əminliyini bildirdi.

Laziz Kudratov ilk növbədə Özbəkistan Prezidentinin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycan və Özbəkistan prezidentləri arasında mövcud olan dostluq münasibətlərinin əməkdaşlığımızın keyfiyyətcə yeni səviyyəyə qalxması üçün möhkəm əsas yaratdığını bildirdi, hər iki dövlət başçısının qarşılıqlı səfərlərinin və görüşlərinin strateji əlaqələrimizin möhkləmləndirilməsi baxımından önəmini qeyd etdi.

Laziz Kudratov vurğuladı ki, Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizin əldə etdiyi iqtisadi uğurlar və əhalinin rifah halının daha da yaxşılaşdırılması Özbəkistanda böyük sevinc doğurur. Qonaq, eyni zamanda, qeyd etdi ki, özbək xalqı Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunmuş hərbi paradı qürur hissi ilə izləyib. Azərbaycan Prezidentinin qətiyyəti və möhkəm iradəsi, uğurlu siyasəti nəticəsində tarixi ədalətin bərpa edilməsinin mümkün olduğunu vurğulayan Laziz Kudratov Şuşa və Füzuliyə səfərləri zamanı orada gedən böyük yenidənqurma və bərpa işlərinin şahidi olduğunu dedi.

Görüşdə sənaye kooperasiyası, iqtisadi, ticari, nəqliyyat, logistika əlaqələrinin dərinləşdirilməsi barədə fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Daşkənddə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 9-da Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub.

Dövlətimizin başçısını salamlayan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dedi:

- Özbəkistana bir daha xoş gəlmisiniz. Sizi salamlamağıma çox şadam. Mehriban xanıma mənim həyat yoldaşım və ailəmdən böyük salamlar var. Fikrimcə, biz hələ növbəti səfərlər zamanı birlikdə görüşəcəyik.

Dünən Azərbaycanda böyük bayram idi, düşünürəm ki, Özbəkistanda da böyük bayram oldu. Mən bütün Azərbaycan xalqını bu Qələbə münasibətilə təbrik edirəm. Biz həmişə buna inanmışıq. Siz Xankəndidə Bayraq qaldırdınız və biz bunun bütün məsələlərə nöqtə qoyduğunu gördük. Güclü Azərbaycan artıq irəliyə doğru addımlayacaq və Azərbaycan xalqının, Azərbaycanın dostlarının, o cümlədən özbək xalqının, Özbəkistanın və Özbəkistan rəhbərliyinin də uzun illər gözlədiyi uğurlara nail olacaq. Ümidvarıq ki, Qarabağ gələcəkdə Azərbaycanda çiçəklənən torpaq olacaq, çünki Siz çox işlər görürsünüz. Mən Şuşada və Füzulidə həyata keçirilən bütün işləri öz gözləri ilə görmüş insanam. Çox şadam ki, orada olmuşam. Mən də onların nələr etdiklərini, özlərindən sonra nələr qoyub getdiklərini və Sizin səyləriniz sayəsində görülən işləri danışacağam. Yaxın ölkə olaraq, daha böyük uğurlar diləyirəm. Azərbaycan xalqı kimi, biz də ədalətin onsuz da zəfər çalacağını, Azərbaycan xalqının öz Qələbəsini qazanacağını gözləyirdik.

Ən xoş arzularımı çatdırıram. Əminəm ki, tezliklə Qarabağ çox inkişaf edən diyara çevriləcək. Çünki Siz Şuşada, Füzulidə nələr olacağını mənə danışdınız, biz yeni aeroportu gördük, mən də orada oldum, əgər bunun Füzulidə olmasına inanmayan varsa, özü baxa bilər. Əslində, bu, Füzulidir və bütün infrastruktur öz həllini tapır. Həm də demək istəyirəm ki, bizim bütün razılaşmalarımız həyata keçirilir.

Özbəkistan Prezidenti əməkdaşlığın möhkəmləndirilməsində qarşılıqlı səfərlərin rolunu vurğuladı. Şavkat Mirziyoyev qeyd etdi ki, Azərbaycanın bütün sahələrdə, o cümlədən iqtisadi sahədə uğurları Özbəkistanda böyük sevinc hissi doğurur.

Özbəkistan Prezidenti əmin olduğunu bildirdi ki, ikitərəfli əlaqələr qarşıdakı illərdə də inkişaf edəcək.

# “Zəfər Günü”ndə rayonda böyük izdiham yaşandı

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə 2020-ci il sentyabrın 27-dən etibarən başladığı zəfər yürüşündə inanılmaz uğurlar əldə etmişdir.***





44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilmişdir.




Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edilmişdir. Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan olmuşdur.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən işğalından qurtarılması müharibənin taleyində həlledici rol oynamışdır. Bütün bunlar Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələnmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərancamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında “Zəfər Günü” kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli digər Sərancamı ilə Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması qərara alınmışdır.



“Zəfər Günü”ndə ölkəmizin hər yerinə olduğu kimi, doğma Ağstafamızda da böyük izdiham yaşandı. Həmin gün Ulu öndərin adını daşıyan Mədəniyyət və İstirahət parkında böyük tədbir keçirildi. Tədbir başlamazdan əvvəl vətənimizin azadlığı uğrunda qəhrəmancasına döyüşən və şəhid olan igid oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov tədbir iştirakçılarını “Zəfər Günü” ilə əlaqədar təbrik etdikdən sonra böyük konsert proqramı ilə çıxış edən mədəniyyət işçilərinin oxuduqları mahnılar, göstərdikləri səhnələr tədbirə toplaşanları valeh etdi. Tədbirdə iştirak edən həmyerlimiz, tanınmış şairə Cığatel xanımın çıxışı xüsusilə yaddaqalan oldu. O, işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda qəhrəmancasına döyüşən və şəhid olan igid əsgərlərimizin analarına öz dərin minnətdarlığını bildirdi və qeyd etdi ki, onların övladları heç vaxt unudulmayacaq və əbədi yaşayacaqlar.





8 Noyabr “Zəfər Günü” illə əlaqədar doğma yurdumuz olan Xankəndidə keçirilən hərbi parad isə bütün dünyaya səs saldı və sübut olundu ki, Qarabaq Azərbaycandır!






# Qış mövsümünə hazırlığın vəziyyəti şura iclasında müzakirə olundu

***Seymur Orucovun rəhbərliyi ilə Ağstafa Rayon İcra Hakimiyyəti başçısı aparatında keçirilən növbəti şura iclasında rayonda qız mövsümünə hazırlığın vəziyyəti geniş müzakirə olundu.***

***İclası giriş sözü ilə açan RİH başçısı qeyd etdi ki, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə respublikamızın hər yerində olduğu kimi Ağstafa rayon əhalisi də fasiləsiz elektrik enerjisi, təbii qaz və içməli su ilə təmin olunur, müvafiq xidmət təşkilatlarının operativ və keyfiyyətli fəaliyyəti üçün texniki və maddi cəhətdən yüksək şərait yaradılır. Odur ki, növbəti qış mövsümündə də əhalinin sosial problemlərinin həllinə dərhal əhəmiyyət verilməli və yaranan problemlər ən qısa zamanda aradan qaldırılmalıdır.***



Müzakirə edilən məsllə barədə Rayon İcra Hakimiyyətinin Tikinti və Memarlıq Şöbəsinin müdiri Sənan Mustafayev ətraflı məlumat verdi. Məruzəçi qeyd etdi ki, ötən illərdə olduğu kimi rayonda fəaliyyət göstərən xidmət təşkilatlarında 2023-2024-cü illər payız-qış mövsümünə hazırlıqla bağlı əvvəlcədən tədbirlər planı hazırlanmış və tədbirlər planına uyğun olaraq payız-qış mövsümünün problem yaranmadan başa çatdırılması üçün bir sıra işlər görülmüşdür. Əhalinin, rayonda fəaliyyət göstərən, idarə, müəssisə və təşkilatların, özəl sektorun fasiləsiz elektrik enerjisi ilə təminatı xüsusi əhəmiyyət kəsb etdiyindən Ağstafa Elektrik Şəbəkəsi tərəfindən bu sahəyə diqqət artırılmış, elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması ilə bağlı konkret addımlar atılmışdır. Belə ki, Ağstafa EŞ-si tərəfindən 2023-2024-cü illərin payız-qış mövsümünə hazırlıq ilə əlaqədar 110 kV 7-ci Ağstafa, 5-6-cı Ağstafa, Poylu, Soyuqbulaq, Şıxlı, Muğanlı, Böyük Kəsik, Girzan h/x-nin trassası, 35 kV Tatlı, Qırılı , Qıraq Kəsəmən h/x-də gəzinti aparılmış xəttə yaxınlaşan ağaclar budamış, kol kos təmizlənmişdir. 28,0 km məsafədə 10/0,4 kV kV h/x-də xəttə yaxınlaşan ağaclar təmizlənərək, boş naqillər tarımlanmışdır. Müxtəlif gücə malik bütün 10/0,4 kV-luq transformatorlara transformator yağı əlavə olunmuş, 10/0,4 kV KTM-lər əsaslı təmir olunmuş, giriş və çıxış kabelləri dəyişdirilmiş, mövsümi yağışlarla əlaqədar bütün TM və KTM-lərin keçid izolyatorları silikonlanmışdır.10 kV-luq Ceyrançöl, Karxana, Göycəli, Tatlı, Haçadağ, Aşağı Göycəli, Köçəsgər, Həsənsu, Muğanlı h/x-də 32 ədəd 10 kV-luq çürük ağac dayaqlar yeni dəmir dayaqlarla, 128 ədəd 28 kV-luq qüsurlu izolyatorlar yenisi ilə əvəz olunmuşdur. Gərginlik zəif olan ərazilərdə yüklərin simmetrik bölünməsi üçün 16 ədəd KTM-dən əlavə fazalar çəkilmişdir. Rayonda mövcud olan bütün y/st-ların elektrik avadanlıqlarına baxışlar keçirilib, altı və ətrafı yad cisimlərdən və alaq otlarından təmizlənib.



Şəmkir Regional Qaz İstismarı İdarəsi Ağstafa Xidmət Sahəsi daxili imkanlar hesabına qaz təchizatının yaxşılaşdırılması məqsədi ilə daxili imkanlar hesabına Ağstafa şəhərinin qaz təchizatının yaxşılaşdırılması məqsədi ilə müxtəlif ərazilərdə 4 ədəd ŞQTM tipli qaz tənzimləyicilərin yeri dəyişdirilmiş 9 ədəd müxtəlif diametrli təzə siyirtmə qaz xətləri üzərinə quraşdırılmışdır. Heydər Əliyev prospektində 180 p/m d 76 mm-lik polad boru ilə yerüstü qaz xətti çəkilmişdir. Rayon ərazisində müxtəlif diametrli 170 p/m istismarı dayandırılmış yararsız qaz xətləri demontaj olunaraq ərazidən götürülmüşdür. Köçəsgər kəndində müxtəlif diamretrli borularla su kanalının sağ və sol hissəsində abonentləri təbii qazla təmin etmək üçün 4425 p/m qaz xətti çəkilmiş Xətai kəndində yeni məhəllənin qaz xəttinin çəkiliəinə başlanılmış Həsənsu kəndində qaz xətləri yararsız vəziyyətdə olan küçələrə müxtəlif diametrli 3800 p/m polad borularla yeni qaz xətləri çəkilməkdədir. Hava şəraitinin qeyri sabit keçməsi nəticəsində Ağstafa rayonunun Köçəsgər kəndi, Saloğlu kəndlərində qaz şəbəkəsinə dəymiş ziyan aradan qaldırılmışdır. Qarabağ müharibəsi qazi və veteranlarının müraciətlərinə əsasən 108 p/m qaz xəttinin yeri dəyişdirilmiş Göycəli kənd sakini müharibə əlili Qəfərli Elmin İsmayıl oğlunun evinə qaz xətti çəkilmiş və abonent kimi qeydə alımnmışdır. Təmiz qaz MMC tərəfindən və xidmət sahəsi tərəfindən 578 qaz sızması və 1491 qaz sızmasının qarşısı alınmış müxtəlif ünvanlarda korroziyaya uğramış 251p/m qaz xətti yerüstü qaz xətti ilə əvəz edilmiş mütəmadi olaraq 1521 dəfə qaz tənzimləyicilər və 3235 dəfə siyirtmələr təftiş olunaraq saz vəziyyətə gətirilmişdir. Qeyd edilir ki, görülmüş işlərlə yanaşı bu sahədə problemlər də mövcuddur. Belə ki, rayonun bir sıra yaşayış məntəqələrində bəzi məhəllələr qazlaşdırılmadığından sakinlər təbii qaz yanacağından istifadə edə bilmir. Bir sıra kəndlərdə, o cümlədən Həsənsu, Köhnəqışlaq kəndlərində, S. Vurğun qəsəbəsində qazın təzyiqi bərabər paylanılmadığından daha çox müraciətlər daxil olur. Payız-qış aylarında narazılıqlar yaranır. Rayonun Aşağı Kəsəmən, Göycəli və digər yaşayış məntəqələrində qazlaşdırılmamış məhəllələrin qazlaşdırılması məsələlərinin həlli sürətləndirilməlidir.

Aztelekom Məhdud Məsuliyyətli Cəmiyyəti qış mövsümünə hazırlıqla bağlı tədbirlərin sentyabr ayında həyata keçirilməsini planlaşdırmışdır. Buna baxmayaraq obyektlərdə qida qurğularında və dizel generatorlarında profilaktik təmir işlərinə başlanılmış, mövcud dizel-generator qurğuları və akkumlyator batareyaların daimi işlək vəziyyətdə saxlanılması nəzarətə götürülmüşdür. Rabitə obyektlərində elektrik naqillərinin izolyasiyası, elektrik açar və digər avadanlıqların təmiri işlərinə başlanılmış. Mərkəzi və kənd EATS dizel generatorları üçün ehtiyat yanacaq tədarük olunmuş, kabel şaxta və quyularına qazın, suyun sızmaması üçün kanallara baxış keçirilmiş və germetik bağlanılması üçün tədbirlər görülür.

Ağstafa Mənzil Kommunal Təsərrüfatı Birliyi üzrə 14 bənddən ibarət tədbirlər planı təsdiq edilmişdir ki, həmin işlərin sentyabr ayında yerinə yetirilməsi nəzərdə tutulmuşdur. İndidən çoxmənzilli yaşayış binalarının tüstü və havalandırıcı şaxtalarında təmizləmə işlərinə başlanılmışdır. Belə ki, kommunal mənzillərdə, bəzi binalarda təmir işləri aparılıb, abadlıq işləri görülüb. H.Əliyev pospekti, 10 saylı binanın həyətinə asfalt örtük salınmış, S.Vurğun küçəsi 98 saylı binanın blokları əsaslı təmir olunmuş,dam örtüyünün bir hissəsi yenisi ilə əvəz olunmuş, zirzəmidə təmizlik işləri görülmüşdür.Binanın dam örtüyündə yaranmış problem həll olunmuşdur. M.Ə.Rəsulzadə küçəsi 92 saylı binanın dam örtüyündə su ötürücü borular təmir olunub, tüstü bacaları, ventilyasiya kanalları təmizlənib.Binanın həyətində uşaqların əyləncəsi və istirahət üçün abad məhlə əhalinin istifadəsinə verilmişdir. H.Arif küçəsində 33 saylı binada jolub tam təmir edilib və üzünün fasadı yenilənib, zirzəmilərində təmir və təmizlik işləri aparılıb, ayna-qapıları təmir olunub. H.Arif 4-6 saylı binaların bloklarında kafellər təmir olunub.Dam örtüyündə təmir işləri görülmüş, joloblar təmizlənmişdir. H.Arif 1 saylı binanın fasadı rənglənmiş,təmir işləri görülmüşdür. Ş.Qurbanov 23 və 24 saylı binaların həyətində uşaqların əyləncəsi və istirahət üçün abad məhlə əhalinin istifadəsinə verilmişdir.Binanın fasad hissəsi yenilənmişdir Ü.Hacıbəyov 28 saylı binada ventilyasiya sistemləri təmizlənib, dam örtüyü təmir olunub. M.Ə.Rəsulzadə 92 A 24 mənzilli binada ventilyasiya boruları təmizlənmişdir. Ağamalıoğlu 1 və Ağamalıoğlu 1 A saylı binalarda ventilyasiya və tüstü boruları təmizlənib, binaların giriş qapıları yenisi ilə əvəz olunmuş və həyətlərindəki ağaclar budanmışdır. H.Əliyev prospektində abadlıq işləri görülmüş, ağaclar əhənglə ağardılmışdır.Şəhər ərazisində Park və Meydanlarla paralel olaraq səki və bardurların üzərində əmələ gəlmiş alaq otların təmizlənməsi işləri davam etdirilir.

İstilik Sistemləri İstismarı Sahəsi balansında olan qazanxanalarda cari təmir işlərinə başlanılmış və onu da qeyd edim ki, ötən qış mövsümündə çoxmənzilli yaşayış və ictimaibinaların isidilməsində problem yaşanmamışdır. Lakin istilik haqqının, xüsusi ilə şəhid ailələri v ə əlillər üçün tikilmiş yaşayış binalarında ödənilməsində problemlər mövcuddur ki, bununla bağlı maarifləndirmə işləri aparılmalıdır.

Ağstafa Sukanal Sahəsinin xidməti ərazisində Nəzarət ölçü cihazları idarəsinin əməkdaşları tərəfindən 5 ay ərzində sıradan çıxmış 28 sayğac dəyişdirilmiş,19 yeni sayğac quraşdırılaraq abonent bazasında qeydiyyata alınmışdır. Xidməti sahədə müxtəlif diametrli poletlin borularda baş vermiş qəzalar operativ şəkildə həll olunmuş ,çirkab suların axıdılması üçün quyular təmizlənmiş,xətlər xüsusi maşınlarla yuyulmuşdur. 20 yanvar küçəsində və şəhərin bir sıra küçələrində kanalizasiya lukları asfalt örtüyü ilə eyni səviyyəyə gətirilmişdir.

“27 № li Yol İstismarı” MMC tərəfindən 59 km respublika, 109,0 km yerli-cəmi 168,0 km avtomobil yoluna xidmət edir və həmin yollarda payış-qış mövsümünə hazırlıqla bağlı ilin əvvəlindən tədbirlər planı hazırlanmış və plana uyğun tədbirlər həyata keçirilir. Xidmətində olan yollarda təhlükəsiz hərəkətin təmin edilməsi üçün çalalar asfalt betonla təmir edilir, yol çiyinləri avtoqreyderlə plana salınır, yararsız siqnal dirəkləri yenisi ilə əvəz olunur, rənglənir. İdarədə qərargah və növbətçilik təşkil olunmuşdur. Görülmüş işlərlə yanaşı yollarda maillik dərəcəsi yüksək olan ərazilərdə yol çiyinlərinə qum ehtiyatının tədarük olunması vacibdir.

Rayonda 39 ümumi təhsil müəssisəsi, 32 körpələr evi uşaq bağçası 2 uşaq bağçası, 2 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. 19 məktəb fərdi qazanxana, 11 məktəb kombi,2 məktəb odun sobası və kombi,7 məktəb pelet peçləri ilə qızdırılır. 6 körpələr evi-uşaq bağçası kombi-qazla, 1 körpələr evi uşaq bağçası kombi-elektriklə, 17 körpələr evi-uşaq bağçası odun sobası,10 körpələr evi-uşaq bağçası dizel sobası ilə qızdırılır. Qeyd etmək lazımdır ki, qış mövsümündə adları qeyd olunan təhsil müəssisələrinin qızdırılması təmin edilsə də Yaradullu kənd körpələr evi-uşaq bağçası vaqonda yerləşdirildiyindən qızdırılmasında problemlər mövcuddur. Böyük Kəsik kənd tam orta məktəbinin qazanxanasının qızdırılmasında problem yaşandığından tərəfimizdən 12.09.2022-ci il tarixli 777/g-8 nömrəli məktubla Elm və Təhsil Nazirliyinə müraciət edilmişdir.

Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin tabeçiliyində18 kənd həkim məntəqəsi, 15 tibb məntəqəsi, və 1 uşaq xəstəlikləri şöbələri fəaliyyət göstərir. Uşaq və doğum şöbələrinin istiliklə təminatı istilik sistemləri İstismarı Sahəsi tərəfindən həyata keçirilir. Kənd məntəqələri dizel sobaları ilə təmin edilmiş, Mərkəzi Xəstəxananın qazanxanasında təmir işləri aparılmış və hazırda bina istiliklə təmin edilir. Hazırda Mərkəzi Xəstəxananın binasında təmir işləri davam etdirilir. Poliklinika binası fərdi istilik sistemi ilə təmin olunur və qızdırılmasında heç bir problem yoxdur. Saloğlu qəsəbə həkim məntəqəsinin elektrik enerjisi ilə təminatı məsələsi ilə bağlı rəhbərlik tərəfindən Səhiyyə Nazirliyinə müraciət olunmuş, içməli su problemi həllini tapmışdır.

Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin Ağstafa rayonu üzrə 80 müəssisəsi fəaliyyət göstərir. Heydər Əliyev Mərkəzinin ümumi isitmə-soyutma sistemi işlək vəziyyətdə deyildir. Qazanxana sisteminin işə salınması üçün texniki sənədlər tərtib edilməli, qaz xətti yenidən çəkilməli və sayğac quraşdırılmalıdır. Rayon Mədəniyyət Mərkəzinin kombi sistemində problemlər mövcuddur. Binanın isidilməsi kondensioner vasitəsi ilə həyata keçirilir. Hüseyn Arifin ev muzeyində pəncərə bloklarının yenilənməsinə ehtiyac vardır. Uşaq Musiqi Məktəbinin qızdırılması fərdi qazanxana vasitəsi ilə həyata keçirilir ki, qazanxanada olan problemlər səbəbindən bəzi otaqların qızdırılmasında problemlər yaşanır.

Gündəlikdə duran məsələ ətrafında geniş müzakirələr aparıldı, qarşıda duran vəzifələrin həlli yolları müəyyənləşdirilərək adiyyəti üzrə məsul şəxslərə müvafiq tövsiyələr və konkret tapşırıqlar verildi.

# Poylu qəsəbəsində vətəndaşların növbəti səyyar qəbulu keçirildi







Poylu qəsəbə kənd tam orta məktəb binasının iclas zalında Seymur Orucovun başçılığı ilə keçirilən növbəti qəbulda rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, RİH-in və aidiyyəti üzrə təşkilatların məsul şəxsləri, eləcə də qəsəbə sakinləri iştirak ediblər. RİH başçısı Seymur Orucov Poylu qəsəbə sakinlərini qarşıdan gələn 8 Noyabr Zəfər Günü münasibəti ilə təbrik edərək bildirib ki, qürurunu yaşadığımız tarixi Zəfər bayramı və ərazi bütövlüyünü təmin etmiş qüdrətli Azərbaycan Ümummilli Lider Heydər Əliyev irsinin təntənəsidir. Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın əldə etdiyi qələbələr, nailiyyətlər, uğurlar məhz Ulu Öndər dühasının bəhrələridir. Həmçinin diqqətə çatdırılıb ki, ölkə rəhbərliyinin konkret tapşırığına uyğun olaraq yerlərdə keçirilən bu cür səyyar qəbulların başlıca məqsədi vətəndaş məmnunluğunu artırmaq, əhalini narahat edən məsələləri dərindən araşdıraraq kompleks həllinə nail olmaqdan ibarətdir.

Səyyar qəbulda vətəndaşların müxtəlif məzmunlu müraciət və təklifləri qeydiyyata alınaraq nəzarətə götürüldü.

# Qəhrəman şəhidlərimizin ailə üzvləri ziyarət olundu







8 Noyabr "Zəfər Günü" münasibətilə qəhrəman şəhidlərimizin ailələri ziyarət olundu. Ziyarətlərdə Ağstafa RİH-in əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri iştirak ediblər. Söhbətlər zamanı xalqımızın əbədi qürur mənbəyi olan şəhidlərimizin və onların timsalında Azərbaycan əsgərinin Vətən uğrunda keçdiyi şərəfli döyüş yolundan, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı tarixi Zəfərdən, eləcə də ölkəmizdə şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına göstərilən yüksək dövlət qayğısından bəhs olundu.

# Gəncədə jurnalistlərlə görüş keçirildi






Azərbaycan Respublikası Mediyanın İnkişafı Agentliyi bu günlər Gəncə şəhərində Heydər Əliyev Mərkəzində mətbuat işçiləri ilə birlikdə regionun jurnalistləri ilə görüş keçirdi. Görüşdə rayon qəzetlərinin redaktorları da iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan Medianın İnkişaf Mərkəzinin icraçı direktoru Əhməd İsmayılov işğal altında olan torpaqlarımızın azad olunmasında qəhrəmancasına döyüşən əsgərlərimizin göstərdikləri igidliklərdən geniş danışmış və bu qələbənin ölkəmizin tarixinə qızıl hərflərlə yazıldığını qeyd etmişdir. Ə. İsmayılov öz çıxışında respublikada mediyanın inkişafından, bu sahədə əldə olunan nailiyyətlərdən və qarşıda duran problemlərdən də ətraflı məlumat vermişdir.

Görüş iştirakçıları çıxış edərək mediyanın inkişafından və bu sahədə olan bəzi problemlərdən də danışmışlar. Çıxış edənlər həmin problemlərin aradan qaldırılması üçün öz təkliflərini vermişlər. Görüş başa çatdıqdan sonra konfrans iştirakçıları birlikdə xatirə şəkli çəkdirmişlər.

# Heydər Əliyev irsi gənclər tərəfindən daim öyrənilir

Heydər Əliyev irsi gənclər tərəfindən daim öyrənilir



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik siyasətinin, həyat və fəaliyyətinin öyrənilməsi və gənc nəslə çatdırılması məqsədi ilə Ağstafa Rayon İcra Hakimiyyəti başçısının müvafiq Sərəncamına uyğun olaraq "Heydər Əliyev Məktəbi"ndə məktəblilər üçün məşğələlərin təşkili davam edir.



"Heydər Əliyev irsinin öyrənilməsi" mövzusunda keçirilən növbəti dərsdə Ağstafa şəhər 2 nömrəli tam orta məktəbin 9 və 10-cu siniflərinin şagirdləri iştirak ediblər. Əvvəlcə şagirdlər Mərkəzin əməkdaşlarının müşayiəti ilə ekspozisiya zalında Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən tarixi fotolardan ibarət stendlərə tamaşa etmiş, ətraflı məlumatlara nail olmuşlar.

Tarix müəllimi Afaq Rəhimova mövzuya dair geniş mühazirə ilə çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyev hər zaman öz doğma xalqına güvənib və xalqının, dövlətinin inkişafı üçün yorulmaz fəaliyyət göstərib. Xalqının taleyi, gələcəyi, qayğıları ilə maraqlanan dahi şəxsiyyət xalqın tələbini geri çevirməyərək ən çətin anda ölkəmizə rəhbərlik məsuliyyətini qəbul edib.

Heydər Əliyev doğma xalqının tarixinə öz adını qızıl hərflərlə yazan böyük xilaskar, xalqın Ümummilli Lideridir. Dərsin sonunda şagirdlər Mərkəzin kino zalında Ulu Öndərin həyatı və ictimai-siyasi fəaliyyəti haqqında sənədli filmə tamaşa ediblər.

# Narkomaniya sağlam həyatın düşmənidir

***Müasir dövrdə narkomaniya bütün dünyada narahatlıq doğuran qlobal problem kimi bəşəriyyətin qarşısında durmaqdadır. Təəssüf ki, "Ağ ölüm" təhlükəsi ölkəmizdən də yan keçməmişdir.Faciəvi nəticələrə gətirib çıxaran narkomaniya və narkobiznes təkcə insanların sağlamlığına deyil, həm də mənəviyyata ciddi zərbə vurur. O, dünyada münaqişə və müharibə ocaqlarının, işğal və nəzarətsiz zonaların, nüvə bazalarının, terror mərkəzlərinin, mütəşəkkil cinayətkar qrupların yaradılması, silah alverinin güclənməsi sahəsində mühüm amilə çevrilmişdir.***

Bu gün narkotiklərin qanunsuz dövriyyəsi dünya miqyasında geniş vüsət alaraq, insanlıq üçün ciddi təhdidə çevrilmişdir. Narkomaniya cinayətkarlığın artmasına rəvac verir, ağır xəstəliklərə səbəb olur, mənəvi deqradasiyaya aparıb çıxarır. Buna baxmayaraq, gənc nəslin bəzi nümayəndələrinin narkotiklərin gətirdiyi fəlakətlər haqqında yetərli təsəvvürü və məlumatı yoxdur. Narkomanlığın yayılması cəmiyyətdə digər mənfi halların genişlənməsi üçün zəmin yaradır.

Narkomaniya bügünkü həyatımızda ciddi problem olaraq qalmaqdadır. Bəzi gənclər narkotik asılılığı girdabına yuvarlanır, bu da narkomaniya ilə bağlı cinayətlərin törədilməsinə səbəb olur. Narkotiklərlə bağlı cinayətlərin artım dinamikası problemin cəmiyyət üçün doğurduğu təhlükəni daha da artırır. Narkomanların say artımı milli genofond üçün ciddi təhdid əmələ gətirir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir sıra problemlər kimi narkotizm probleminə qarşı mübarizə tədbirləri görülməsinin vacibliyi ön plana çıxmış, bu problemə münasibətdə yeni mərhələ başlanmışdır. Bu mərhələnin ən müsbət cəhəti ondan ibarətdir ki, narkotizmə qarşı mübarizədə dövlət orqanları ilə yanaşı, ictimai təşkilatların fəaliyyəti üçün də lazımi şərait yaradılmışdır. Azərbaycan Respublikasında narkotizmlə və narkobiznesl ə mübarizənin əsası ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 18 iyun 1999-cu il tarixli Qanunla qoyulmuşdur.

Bu dəhşətli bəlaya qarşı ayrı-ayrı dövlət strukturları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri, hüquq-mühafizə orqanları, təhsil və səhiyyə sistemi birgə mübarizə aparmaqla onun yayılmasının və kütləvi xarakter kəsb etməsinin qarşısını ala bilər. Narkomaniyaya qarşı ardıcıl mübarizə bir çox istiqamətlər üzrə əməli addımlar atılması zərurətini şərtləndirir. Bu gün narkomaniya probleminin həlli sahəsində geniş tədbirlər kompleksinin həyata keçirilməsi tələb olunur. Narkomaniyaya qarşı məqsədyönlü mübarizə ümumxalq işinə çevrilməlidir.

Sağlam həyat tərzinin təbliği, gənclərin dövlətçiliyə sadiq layiqli vətəndaşlar kimi tərbiyə olunması Azərbaycan Respublikasında həyata keçirilən dövlət gənclər siyasətinin prioritet vəzifələrindən birini təşkil edir. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nda gənclərin sağlamlığının qorunması və həssas qruplardan olan gənclərə dövlət dəstəyi sahəsində tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdu. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nda bu istiqamətdə fəaliyyətin daha da genişləndirilməsi vəzifə kimi aidiyyəti orqanlara tapşırılmışdır. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" bu istiqamətdə həyata keçirilməli olan kompleks tədbirləri müəyyən etmişdir.




Dövlət rəhbərliyi tərəfindən bu sahədə qarşıda qoyulmuş vəzifələrin həlli məqsədilə Gənclər və İdman Nazirliyi narkomaniyaya qarşı mübarizə çərçivəsində ardıcıl tədbirlər həyata keçirir, sağlam həyat tərzinin təbliği sahəsində məqsədyönlü fəaliyyətini davam etdirir.

Gənclər arasında zərərli vərdişlərin profilaktikası sahəsində maarifləndirmə tədbirləri xüsusi əhəmiyyət kəsb edir. Narkomaniyaya qarşı mübarizə məqsədilə təşviqat aksiyaları, mədəni-kütləvi tədbirlər, müsabiqələr, festivallar təşkil olunur.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra digər məsələlər kimi, bu problemin də həlli öndə saxlanıldı. Bir Azərbaycan vətəndaşı olaraq müstəqilliyimizin ilk illərində, dövlətçiliyimizin və müstəqilliyimizin təhlükə altında, Azərbaycanın ağır durumla üz-üzə qaldığı illərdə üzləşdiyimiz çətinliyi qeyd etməmək mümkün deyil. Azərbaycan müstəqil bir dövlət kimi varlığını itirmək təhlükəsi ilə üz-üzə qalmışdır. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizin qarşısında böyük imkanların yaranmasına stimul oldu. Azərbaycanda ictimai-siyasi durumun sabitliyi, normal iqtisadi mühitin yaradılması ölkəmizin iqtisadi qüdrətini daha da artırdı. Təbii ki, bu xatırlatmamız səbəbsiz deyil. Müstəqilliyimizin təhlükə altında qaldığı 1990-cı ilin əvvəlində ölkəmizdəki özbaşınalıq, hakimiyyətsizlik, gənclərə diqqətin unudulması, narkomanlığa aludəçilik üçün münbit şərait yaratdı. Ulu öndər Heydər Əliyevin gənclərə diqqəti artırması bu bəlanın da qarşısını aldı.

Narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükə törədir. Narkotik maddələrin qəbul edilməsi ilə insan fiziki və psixoloji cəhətdən məhv olur. Narkomaniya yaddaş və təfəkkürü pozur, həyati proseslərə qarşı laqeydlik yaradır. Cəmiyyətin böhranlı dövründə narkomanlıq artır, sosial münasibətlərə mənfi təsir göstərir. Narkomaniya orqanizmin zəifləməsinə, bədənin arıqlamasına və fiziki gücün düşməsinə gətirib çıxarır.

Araşdırmalardan bəlli olur ki, narkotik maddələrdən istifadə edən insanlarda ilk əvvəl xoş hisslər yaranır və istifadəçilər bu aldadıcı təsirin, yəni, sevinc və enerjinin həmin maddələrdə olmasına inanmağa başlayır. Bu qənaət yanlışdır. Əgər hər şey narkotik istifadəçilərinin düşündüyü kimi olsaydı, cəmiyyətin ən fərəhli, ən gümrah, öz karyerasında və şəxsi həyatında uğur qazanan insanları onlar olardılar.

Narkotikin aludəçiləriylə sorğular göstərir ki, ailədə və işdə yaranan problemlər, psixoloji zəiflik, düzgün seçilməyən mühit və digər müxtəlif səbəblər onları narkotikdən istifadəyə istiqamətləndirib. Əlbəttə, narkotikdən sırf əyləncə məqsədilə istifadə edənlərin də olması faktdır.Narkomaniya insanın tədricən ölümünə səbəb olur. Daha doğrusu, insan şüurlu olaraq özü-özünü ölümə məhkum edir.

Bu gün ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi və onlara qarşı mübarizə üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, bu sahədə hüquq-mühafizə orqanlarının fəaliyyətinin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi dövlət başçısının, hüquq mühafizə orqanlarının daim diqqət mərkəzindədir. Bu gün narkomanlığa qarşı mübarizədə səmərəliliyə nail olmaq üçün aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə yaradılmış Dövlət Komissiyası və ölkə Prezidentinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair dövlət proqramları xüsusi təkan vermişdir.

Narkomaniyaya qarşı mübarizə sahəsində atılan addımlar öz müsbət nəticəsini verməkdədir. Lakin onu da qeyd etmək lazımdır ki, bu sahədə fəaliyyət daha da gücləndirilməli, yeniliyə kreativ aksiyalar həyata keçirilməlidir. Gənc və yeniyetmələrin antinarkomaniya ruhunda tərbiyə olunması sahəsində həyata keçirilən tədbirlər daha da gücləndirilməlidir. Çünki bu iş təkcə dövlətin, hüquq-mühafizə orqanlarının üzərinə düşən məsuliyyət deyil, bu məsuliyyətin mühüm bir hissəsi də cəmiyyətin, hər bir vətəndaşın, ictimai qurum və təşkilatların, kütləvi informasiya vasitələrinin və bütün mədəni-maarif müəsssisələrinin üzərinə düşür. Narkomaniyaya qarşı mübarizəni gücləndirməklə biz gələciyimizi, sağlamlığımızı qoruyur, dövlətçiliyimizi daha da gücləndirmiş oluruq. Azərbaycanın gələcəyi kimi dəyərləndirilən gənclərin sağlamlığının təminatı daim diqqətdə saxlanılan məsələ olmalıdır.

***Anar Cəfərov,***
***Ağstafa rayon prokuroru***

# YAP ÜZVLƏRİNİN ÜRƏK SÖZLƏRİ

20 il ərzində aparılan sistemli iqtisadi-siyasi, hərbi, diplomatik siyasət nəticəsindən Azərbaycan uğurlar əldə etdi.Bu uğurlar bütövlükdə Azərbaycanın qələbəsini təmin etdi: "Cənab Prezident həmçinin, çıxışında bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq vurğuladı. 44 günlük müharibədəki qələbədən sonra da, Azərbaycan öz hərbi büdcəsini artırmaqda davam edir. Bu bir daha ölkə rəhbərliyinin müdrik, uzaqgörən baxışının nəticəsidir. Hazırda, dünyada qlobal təhlükəsiz baxımından tarazlığın pozulduğu bir vaxtda təhlükə yalnız Ermənistan hesab oluna bilməz. Azərbaycan hər zaman güçlü ordusu ilə təhlükəsizliyinə ciddi təminat yaratmalıdır.

***Musa MÜRSAQULİYEV,***
***"Keşikçidağ DTMQ" Ərazi Partiya Təşkilatının sədri***

* * *

Şuşa əməliyyatı qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq.

***Vüsal HƏSƏNOV,***
***Ağstafa rayon Dağ Kəsəmən kənd 2 saylı tam orta məktəbin direktoru***

* * *

Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər.

***Azad ƏLƏKBƏROV,***
***"Azərişıq" Ərazi Partiya Təşkilatının sədri***

* * *

Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi.

***Vüqar TAĞIYEV,***
***"Qarayazı DTQ" Ərazi Partiya Təşkilatının sədri***

* * *

Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır.

***Xəki QULİYEV,***
***"Poylu kənd" Ərazi Partiya Təşkilatının sədri***

* * *

Cənab İlham Əliyevin rəhbərliyi ilə vətənpərvərlik məsələləri ilə bağlı ölkənin çox fəal siyasəti olub. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Gənclərimiz vətənpərvərdir, Vətənə bağlıdır və İkinci Qarabağ müharibəsi bunu göstərdi. Daxili sabitlik, milli birlik, milli həmrəylik, xalq-iqtidar birliyi bütün bunlar ölkəmizdə aparılan dövlət siyasətinin böyük nəticəsidir. Bu gün dünyanın və bizim bölgəmizin enerji-nəqliyyat xəritələrinə baxmaq kifayətdir ki, hər kəs görsün bizim təşəbbüsümüzlə icra edilən layihələr həm ölkəmizə, həm də bizim tərəfdaşlarımıza nə qədər böyük fayda gətirib.

***Şirin HƏSƏNOV,***
***"Zəlimxan kənd" Ərazi Partiya Təşkilatının sədri***

# “Sağlam məhəllə” idman zonası istifadəyə verildi



Rayonda çoxmənzilli yaşayış binalarının həyətlərində aparılan təmizlik, abadlıq, yenidənqurma işləri bu gün də uğurla davam etdirilir. Elə bir xoşməramlı tədbir H. Arif küçəsində yerləşən çoxmənzilli yaşayış binalarının sakinlərinə də qismət oldu. Bu günlər həmin binanın həyətində “Sağlam məhəllə” idman zonası istifadəyə verildi. İdman zonasında minifutbol və basketbol meydançaları, stolüstü tennis, şahmat, eləcə də hər yaş qrupuna uyğun fitnes avadanlıqları yerləşdirildi.

Yeni məhəllədə “Sağlam məhəllə” idman zonasının açılış mərasimində Gənclər və İdman naziri Fərid Qayıbov, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov, idman ustaları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

“Sağlam məhəllə”də minifutbol, basketbol və voleybol meydançaları, eləcə də hər yaş qrupuna uyğun idman avadanlıqları yerləşdirilib. Nazir burada yaradılmış şəraitlə yaxından tanış olub və sakinlərlə, gənclərlə görüşüb, onların fikir və təkliflərini dinləyib.

Bildirilib ki, ölkədə idmanın inkişafının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda idman siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ağstafa rayonunda idman qurğu və avadanlıqlarının istifadəyə verilməsi ilə rayon gənclərinin və yeniyetmələrinin asudə vaxtlarının səmərəli keçirilməsində çox böyük önəm daşıyır. “Sağlam məhəllə” layihəsi çərçivəsində yaxınlıqdakı küçələrdə və kəndlərdə yaşayanlar da yararlana biləcəklər.

Bu məhəllə Azərbaycanda istifadəyə verilən sayca yeddinci “Sağlam məhəllə”dir. Belə bir tədbir ölkəmizdə gənclərin sağlam böyüməsi üçün göstərilən qayğının parlaq təzahürüdür. Tədbirdə çıxış edənlər gənclərə göstərilən belə bir diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər.



# Məktəblilər H.Arifin ev muzeyini ziyarət etdilər



Məktəbli gənclərin təlim-tərbiyəsi ilə yanaşı, onların dünyagörüşünün formalaşdırılması pedaqoji işçilərin qarşısında duran ən mühüm məsələlərdir. Bütün təhsil müəssisələrində olduğu kimi, şəhər 2 saylı tam orta məktəbində də bu istiqamətdə məqsədyönlü işlər aparılır.

Bu günlər məktəbin 1c sinfinin şagirdləri onlara dərs keçən sinif müəllimləri Sevil Kərimova ilə birlikdə Hüseyn Arifin ev muzeyini ziyarət etmişlər. Muzeyin əməkdaşları uşaqlara H. Arifin həyat və fəaliyyəti barədə ətraflı məlumat vermiş, dahi şairin ayrı-ayrı illərdə çəkdirdiyi fotoşəkilləri onlara göstərmişlər. Muzeydə keçirilən tədbir uşaqların böyük sevincinə səbəb olmuş və onlar belə ziyarətlərin tez-tez keçirilməsini müəllimlərindən xahiş etmişlər.

# Bol məhsulun təməli qoyulur



Yola salmağa hazırlaşdığımız 2023-cü il kənd təsərrüfatı sahəsində ən uğurlu illərdən biri olacaq. Rayonun kənd əməkçiləri bu il ən çətin hava şəraiti ilə üzbəüz dayanmış, yaranmış çətinliklərə baxmayaraq, tarlalarda bol məhsul yetişdirərək tədarük etmişlər.

Bu il rayonun kəndlərində 9939 hektar sahədə taxıl əkilmişdir ki, onun 7151 hektarı buğda, 2788,5 hektarını arpa təşkil etmişdir. Hər hektardan 19,9 sentner arpa, 34,1 hektardan buğda götürülmüşdür. 2023-cü ildə 537 hektar sahədə qarğıdalı, 397 hektar sahədə kartof, 110 hektar sahədə bostan bitkiləri, 1263 hektar sahədə günəbaxan əkilmiş və hər hektardan 46,8 sentner qarğıdalı, 19,1 sentner günəbaxan və 199,5 sentner kartof tədarük olunmuşdur.

Çətin hava şəraitində əldə olunan nailiyyətlər kənd əməkçilərini ruhdan salmamış və 2024-cü ilin bol məhsulunun təməlini qoymuşlar.

Payızlıq əkin-səpin işlərini daha dərindən öyrənmək üçün bu günlər Aqrar-İnkişaf Mərkəzinin Bitkiçilik Sektorunun müdiri Çingiz Məmmədovla görüşdük və ondan qəzetimiz üçün müsahibə verməyi xahiş etdik. Ç. Məmmədov suallarımızı cavablandıraraq dedi:

-Havaların əlverişsiz keçməsi əkinçilərimizi ruhdan salmadı və yetişdirdikləri arpanı, buğdanı, qarğıdalını, günəbaxanı və bostan məhsullarını həvəslə topladılar. Artıq bir neçə gündür ki, payızlıq əkin-səpin işlərinə başlamışıq. Ötən günlər bütün sahələrdə əkin işləri yekunlaşdırılmış və səpin işlərinə başlanılmışdır. Bu il 8500 hektar sahədə taxıl əkilməsi proqnozlaşdırılmış və artıq 6200 hektar sahədə əkin işləri yekunlaşdırılmışdır. Həmin sahələrin 3720 hektarında buğda, 2450 hektarında arpa əkilmişdir. Hal-hazırda səpin işləri uğurla davam etdirilir. İndiyə kimi səpin aparılmış sahələrin 563 hektarında suvarılma işləri aparılmış və noyabr ayının sonuna kimi bütün sahələrdə suvarma işlərinin yekunlaşdırılması nəzərdə tutulmuşdur. Qeyd etməliyəm ki, yazlıq əkinlər üçün payız şumunun qaldırılmasını da diqqət mərkəzində saxlayırıq. Artıq 1000 hektardan çox sahədə şum qaldırılmışdır. Söz yox ki, bu işi də uğurla başa çatdıracağıq.

*İ. Əliyev*

Dünyaya göz açmışam,
Pərvazlanıb uçmuşam,
Günəş kimi saçmışam.
Ünvanımı soruşsan,
Azərbaycan yazıram!
Azərbaycan uğrunda
Çarpışmağa hazıram!
Gəzsəm dünya üzünü,
Ölkələrin yüzünü,
Amma deyim düzünü
Ünvanımı soruşsan,

## Azərbaycan yazıram!

Azərbaycan yazıram!
Azərbaycan uğrunda
Çarpışmağa hazıram!
Düşmənimi vurmuşam,
Torpağımda durmuşam,
Şəhər, kəndlər qurmuşam,
Ünvanımı soruşsan,
Azərbaycan yazıram!

Şuşada daşın, dağın,
Azad olmuş torpağın,
Ey dünya, Qarabağın
Ünvanını soruşsan,
Azərbaycan yazıram!
Azərbaycan uğrunda
Vuruşmağa hazıram!

***Cəfər Əsgərov***

## Mənə qoca deməyin

Mənə qoca deməyin
Ruhdan düşürəm onda.
Sanki, bütün varlığım.
Sarsılır həmin anda.

Xatirələr içində,
Özümü unuduram,
Xəyal çəkir uzağa,
Heykəl kimi dururam.

Huşum çaşıb elə bil,
Bihuş olub lal kimi,
Çırpınıram səmada,
Yaralı qartal kimi.

Yaşın tez ötməsinə,
Baxıb, seyr edirəm mən,
Tanrımın bəxş etdiyi,
Yol ilə gedirəm mən.

Cavanlıqdan nə deyim,
Bir yanıqlı ah qalıb,
Şahinin də qəlbinə,
Xatirələr iz salıb.

***Şahin Qurban***

## Saqif Qaratorpaq - 60

# Həm müəllim, həm də şair



Saqif Qnyaz oğlu Babayev 1963-cü ildə rayonun Köçəsgər kəndində anadan olmuşdur. O, həmin kənddə orta məktəbi bitirmiş və 1981-ci ildə Azərbaycan Texnologiya Universitetinə daxil olmuşdur. S.Babayev 1986-cı ildə həmin universiteti müvəffəqiyyətlə bitirdikdən sonra əmək fəaliyyətinə başlamış, 2004-cü ildə Köçəsgər kənd tam orta məktəbində müəllim kimi əmək fəaliyyətini davam etdirmiş və bu günə kimi həmin məktəbdə çalışır.

Saqif Babayevi hamı rayonda müəllim, şair kimi tanıyır. Onda şeir yazmaq həvəsi hələ orta məktəbdə oxuyarkən yaranmış və o, bu günə kimi həmin ruhla yaşayır. Onun ilk şeirləri Qazax və Ağstafa rayonları bir olarkən yerli “Qalibiyyət bayrağı” qəzetində dərc olunmuş və ondakı bu qabiliyyəti, bacarığı görən jurnalistlər həmişə həmin qəzetin səhifələrində onun şeirlərinə yer ayırmışlar.

Günlərin birində Saqif Babayev tanınmış şair Müzəffər Şükürlə görüşüb söhbət edərkən ona bir neçə təxəllüs təklif olunmuş və çox ölçüb-biçdikdən sonra gənc şair Qaratorpaq təxəllüsünü götürmüşdür. Bu gün hamı onu Saqif Qaratorpaq kimi tanıyır.

Saqif Qaratorpağın ötən illərdə çox böyük yaradıcılıq uğurları olmuş, onun şeirləri özbək, qazax, türk və rus dillərinə tərcümə olunmuşdur. Bütün bunlarla yanaşı yaradıcı şairimiz rus və özbək dillərində şeirlər tərcümə etmişdir.

S.Qaratorpaq bu gün 5 kitabın və müxtəlif şeir almanaxlarının müəllifidir. Onun yaradıcılığında lirika əsas yer tutur.

Hər gün hamıda itirib,
Tək səndə tapdım özümü.
Min-min ağrıdan, acıdan
Yoğurdum, yapdım özümü.

Yandım, ağ yerim qalmadı,
Bir varaq yerim qalmadı,
Bircə sağ yerim qalmadı,
Taladım, çapdım özümü.

Bir qərib eşqdə təklənib,
Qəm üstündə çiçəklənib,
Bir misraya dirsəklənib,
Bir az yubatdım özümü.

Şair təkcə rayonumuzda deyil, respublikamızın şeir, sənət yaradıcıları tərəfindən də yaxşı tanınır. Onun kitablarının bir neçəsinin təqdimatı Bakı şəhərində tanınmış şair və yazıçıların iştirakı ilə keçirilmişdir. O, 2019-cu ildə Türkiyənin Adana şəhərində keçirilən Beynəlxalq şeir və musiqi festivalında iştirak etmiş və yüksək mükafat almışdır. Uğurlu günlər şairin həyatında həmişə xüsusi yer tutmuş və o, bu il prezident təqaüdünə layiq görülmüşdür.



Şairin yaradıcılığı Ağstafa rayonunun rəhbərliyinin də diqqət mərkəzində olmuş və bu günlər onun 60 illik yubileyi ilə əlaqədar Rayon Mədəniyyət Mərkəzində böyük yubiley tədbiri keçirilmişdir. Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov özü şəxsən iştirak etmş və şairi 60 illik yubileyi münasibətilə təbrik edərək, ona fəxri fərman və pul mükafatı vermişdir.Yubiley tədbirində şairi tanıyanlar, onun yaxın dostları Barat Vüsal, Rüstəm Kamal, Aydın İbrahimoğlu, Fəxrəddin Əsəd, İnqilab İsak, Mübariz Qaragözlü, Valeh Nəsirli, aşıq Camoy, aşıq Eldar, aşıq İradə, Ramal Balacanov və başqaları çıxış edərək onu təbrik etmişlər.

Bəli, Saqif Qaratorpaq bu gün də öz yaradıcılığını uyğurla davam etdirir. Fürsətdən istifadə edərək, mən də, “Ağstafa” qəzetinin əməkdaşları, oxucuları və bütün ağstafalılar adından istedadlı şairimizi 60 illik yubileyi münasibətilə təbrik edir, ona daha böyük uğurlar arzulayır və fikrimi şairin bir şeiri ilə tamamlayıram.

Üzümü söykəyib soyuq daşına,
Gözündən içdiyim bulaq Vətəndir!
Közünü ürəklə qarışdırdığım
Dədələr çatdığı ocaq Vətəndir!

Bizik zirvələrdə qalalar yapan,
Vuruşub, döyüşüb haqqını tapan.
Dərdli anaların bağrından qopan
Hər ağrı Vətəndir, hər dağ Vətəndir!

Daha yaşamaraq küncə sıxılıb,
Uçubdu kümesi pisin, paxılın.
Bənövşə ətirli, yovşan qoxulu
Şəhidlər uyuyan torpaq Vətəndir!

Min oyun oynaram tale zərimlə,
Ucayam, qocayam yurdum-yerimlə.
Hər gün axıtdığım alın tərimlə
Əkib-becərdiyim hər bağ Vətəndir!

Azadlıq eşqidir elə yaydığım,
Tanısın yerini heçə saydığım.
Öpüb gözlərimin üstə qoyduğum
Şuşada yellənən bayraq Vətəndir!

*İ.Əliyev*




# Qəhvəyi mərmər bağacığı

Morfologiyası-Qəhvəyi mərmər bağacığı qəhvəyi rəngdədir. Önkürəcik, qalxan və baş hissələrində açıq və tünd rəngli ləkələrin növbələşməsi vizual mərmər şəklini yaradır ki, bağacığın adı buradan qəbul edilmişdir.

Gürcüstanda geniş şəkildə yayılmışdır. Hal-hazırda Balakən-Zaqatala və Qazax-Ağstafa ərazisində xüsusi təhlükəli hesab olunan qəhvəyi mərmər bağacığı qeydə alınmışdır. İlk dəfə olaraq Gəncə-Qazax bölgəsində Ağstafa rayonunun Köçəsgər kəndində meyvə bağlarında (2022-ci ilin noyabrında) aşkar edilmişdir. Qəhvəyi mərmər bağacığı 300-dən çox bitki növü ilə qidalanaraq onların məhsuldarlığını əhəmiyyətli dərəcədə aşağı salır. Bu zərərverici həm yetkin, həm sürfə mərhələsində qida bitkisinin meyvələri, cavan budaqları və yarpaqlarının şirəsini sovurmaqla qidalanır. Bu zaman meyvətərəvəzlərin səthini zədələyərək həmin hissədə nekroz əmələ gətirir. Nəticədə meyvənin qabığı altında quru pambıqvari toxuma əmələ gəlir, meyvələrin dadı pisləşir, üst səthi kələ-kötür olur.

Qəhvəyi mərmər bağacığının bədəni azacıq yastı olub, armudvari formadadı. Ölçüsü 12-17 mm, rəngi isə qəhvəyidir. Bədənin alt hissəsi ağ və ya açıq-qəhvəyi rəngdədir, qarıncığın kənarlarında boz və qara üçbucaq şəkilli ləkələr var.

Zərərvericinin inkişafı üçün optimal temperatur 18-25 dərəcədir. Mart-aprel aylarında yetkin fərdlər qışlamadan çıxır. Dişi fərdlər hər birində 25-30 ədəd olmaqla, topa şəklində yarpağın alt səthinə ağ kürəşəkilli yumurta qoyur. Bir dişi fərd 300-ə qədər yumurta qoya bilir.

Yumurtadan şıxan sürfələr 5 yaş dövrü keçirir. Hər yaşda sürfələrin rəngi dəyişir. I yaşda baş və döş hissəsi qara, qarıncıq isə narıncı-qırmızı, II yaşda narıncı-qırmızı rəng qara rənglə əvəzlənir, III-V yaşlarda isə nisbətən açıq rəng olur. Sürfələr yetkin fərdlərdən rənglərinə və qanadlarının olmamasına görə fərqlənir. V yaşda sürfənin bədəninin üst tərəfində narıncı-sarı ləkələr, yan tərəflərində isə tikancıqlar olur. Qışlamanı yetkin mərhələdə nisbətən quru qapalı yerlərdə (məsələn, qurumuş kötük və çürüməkdə olan yerlərdə ağac gövdələrində, evlərin damında, anbarlarda, taxta, odun yığınlar arasında və s.) qrup çaklində keçirirlər. Qəhvəyi mərmər bağacığı ona yaxın olan növlərdən bığcıqlarının son 2 buğumunda (IV-V) ağ zolaqlar və qarıncığının kənarlarında xarakterik ağ-qara naxışlarının olması ilə fərqlənir.

Yetkin fərdlər və sürfələr yükdaşımaları, nəqliyyat vasitələri, avadanlıqlar, ağac materialları yüklənmiş konteynerlər, təzə meyvə-tərəvəz, kəsilmiş güllər, tinglər və s. vasitəsilə yayılır. Eyni zamanda yetkin fərdləri təbii yolla (uçmaqla) 35-100 km-dək məsafə qət edə bilirlər. 2022-ci ilin dekabrında qəhvəyi mərmər bağacığı ilə əlaqədar olaraq monitorinqlərə başlanmışdır. Aparılan yoxlamalar zamanı Gürcüstanla həmsərhəd olan kəndlərdə Ağstafa rayonunun Sadıxlı, Qazaxın 2-ci Şıxlı kəndində aşkar olundu. Bununla əlaqədar olaraq kəndlərdə tutucu feromon tələlər quraşdırıldı. Tutucu feromon tələlərdə qəhvəyi mərmər bağacığın olması ciddi iş rejiminə keçirilməsinə gəlib çıxartdı. Belə ki, Gürcüstanla həmsərhəd ərazidə Sınıq körpüdə maşınların böyük stansiyasına daxil olunan qatarların dezinfeksiya işləri həyata keçirilir. Evlərdə, tikililərdə müşahidə edildikdə mexaniki yolla (əl ilə və ya digər vasitələrlə) yığılaraq məhv edilir.

Qəhvəyi mərmər bağacığına qarşı bitki mühafizəsinə dair tədbirlər planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2022-ci il tarixli 819S nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

***Camal Əsgərov,***
***Bitki Mühafizəsi və Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzi Ağstafa rayon Mərkəzinin rəisi***

## Allah rəhmət eləsin!

“Ağstafa” qəzetinin baş redaktoru İbrahim Əliyev qələm dostu Ələddin Qarayevə, anası **Fatma Qarayevanın** vəfatı ilə kədərləndiyini bildirir və ona dərin hüznlə başsağlığı verir.

Qarabağ Əlillərinə Qayğı İctimai Birliyi Ağstafa rayon filialının sədri Ceyhun Əliyev Ələddin Qarayevə, anası **Fatma xanımın** vəfatı ilə kədərləndiyini bildirir və ona dərin hüznlə başsağlığı verir.

Milli Qəhrəmanların Tanıdılması İctimai Birliyi Ağstafa rayon filialının sədri Alı Alıyev Ələddin Qarayevə, anası **Fatma xanımın** vəfatı ilə kədərləndiyini bildirir və ona dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR:**
**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
***“Ağstafa” qəzetinin jurnalist kollektivi***
***Şəadətnamə № 308***

***Redaksiya heyəti***
***L.Eyyubova, İ.Sofuyev, M.Zeynalov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli, Q.Qurbanov, A.Əlixanov***

***Qəzet redaksiyanın kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Mətbuat firması” mətbəəsində çap olunmuşdur.***

***Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10***
***Tel: 5-14-56***
***mob: (050) 344-26-20***
***Tiraj: 1000***